Arif Babayev – 85

# Heydər Əliyev Sarayında "Arif Babayevin muğam dünyası"

**Azərbaycanın Xalq artisti, görkəmli muğam ifaçısı, professor Arif Babayevin istedadlı yetirmələrinin öz ustadlarının 85 illik yubileyinə sənət töhfəsi olaraq Heydər Əliyev Sarayının səhnəsində hazırladıqları "Arif Babayevin muğam dünyası" adlı konsert dünən axşam böyük uğurla gerçəkləşdi.**




Arif Babayevin ünlü tələbələri və ökənin tanınmış xanəndələri yubilyarın repertuarında uzun illər aparıcı yer tutmuş və populyarlaşmış muğam və təsnifləri paytaxtın baş kosert səhnəsində yüksək sevgi və coşqu ilə səsləndirdilər. Arif Babayev sənətinin pərəstişkarları Xalq artistləri Mələkxanım Eyyubovanın, Zabit Nəbizadənin, Könül Xasıyevanın, Əməkdar artistlər Gülüstan Əliyevanın, Nuriyyə Hüseynovanın, Almaz Orucovanın, Zakir Əliyevin, Cabir Abdullayevin, Firuz Səxavətin, Elnarə Abdullayevanın, Ehtiram Hüseynovun, Könül Kərimovanın, Sevinc Sarıyevanın, Babək Niftəliyevin, Fərqanə Qasımovanın, Elnur Zeynalovun və xanəndə Vüqar Əliyevin çıxışlarını görkəmli xanəndə və müsiqi pedaqoqunun sənət yolunun davamı və yubiley hesabatı kimi alqışladılar.




Xatırladaq ki, ümummilli lider Heydər Əliyev 1998-ci ilin bahar bayramı şənliyində ədəbiyyat və incəsənət xadimləri ilə söhbəti zamanı demişdi: "Arif bizim böyük müğənnimizdir". Yubiley gecəsində bu yüksək qiyməti böyük minnətdarlıqla yada salan Arif Babayev XQ-yə qısa açıqlamasında bildirdi:

– Mənim sənətimə Ulu öndərin verdiyi bu ali dəyərdən 26 il sonra onun adını daşıyan sənət məbədində belə bir təntənənin qurulması – yaşlı nəslin yolunu davam etdirən istedadlı ifaçıların muğam incilərimizi sonsuz bir şövqlə səsləndirmələri sevimli rəhbərin milli musiqimizin qorunması və inkişafına göstərdiyi diqqət və qayğını bu gün Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yüksək səviyyədə davam etdirməsinin daha bir parlaq nümunəsidir. Muğam xalqımızın ölməz ruhunu yaşadır və xalqımızın mənəvi aləmini zənginləşdirir. Buaxşamkı konsert bu həqiqəti bir daha təsdiqlədi.

Mən xoşbəxt sənətkaram ki, həyatımın 70 ilini muğam dünyasında keçirmişəm və yolumu davam etdirən istedadlı yetirmələrim var. Bu gecə mənim ömrümü xeyli uzatdı. Bir daha inandım ki, xalq dəyərli sənəti həmişə uca tutur. Dövlətimiz də xalqın sevdiyi sənət və sənətkarı himayə etməklə bu sahədə həmişəyaşarlığa təminat yaradır.

*T.RÜSTƏMLİ*
*XQ*